## Kirman Rüstəmli

### Qadın

Qəlbimə yazılmş müqəddəs adın
Şərəflə daşıdın analıq adın
Sən elə zirvəsən, əlim çatmayır
Dünyanı yaradan qadın, ey qadın.

Nə qədər ülvisən, tər təravətsən
Gəl, duyum əlindən cənnətin dadın.
Yetimə, yesirə  sən səxavətsən
Dünyanın dərdini daşıyan qadın.

Tanrı yaradanda belə yaradıb
Səni uca tutub yanında yadın.
Sənə bəzək verib, səni daradıb
Acısı şirindən çox olan, qadın.

Anasan, başından aşar qayğılar
Hər zülmə qarşıdır ana fəryadın.
Vətənə göz diksə mürtəd yağılar
Erkəyi yanında döyüşər qadın.

Bir damla südünün mayası mənəm
Yatmayıb sübhədək sən mənə baxdın.
Hər gün itirdiyin keçmiş, dünənəm
Ulumun ulusu, qadın, ey qadın.

Behişti, cənnəti niyə axtarım
Behişdən, cənnətdən ucadır adın!
Sənsiz əsəblərim çəkilər tarım
Evimin sultanı qadın, ey qadın.